## 3.2.Distant test imtahanı prosesi

3.2.1. İmtahan zamanı tələbələrə normal şəraitin yaradılması məqsədilə, onlar imtahan başlamazadan ən azı 10 dəqiqə əvvəl Zoom linki vasitəsilə virtual imtahan otağına daxil olmalıdırlar. Bu müddətdən sonra, virtual imtahan otağına "giriş qadağası" aktiv edilir və virtual imtahan otağına müəyyən edilmiş vaxtdan geç daxil olan tələbələr imtahana buraxılmır. Ümumi halda tələbələr virtual imtahan otağına 30 dəqiqə əvvəl daxil olurlar.

3.2.2. Proktor ilkin olaraq tələbələrin şəxsiyyətlərini müəyyən etdir və onların imtahan sisteminə daxil olmasına imkan yaradır. İmtahan sisteminə daxil olmaq istəyən tələbə və ya magistrantların şəxsiyyətinin müəyyən edilməsi mümükün olmadıqda (şəxsiyyəti təsdiqedici digər şəkilli sənəd təqdim etmədikdə), proktor tərəfindən onların imtahan sisteminə daxil olmasına icazə verilmir.

3.2.3. Hər bir tələbə imtahan sistemində öz istifadəçi adını və şəxsi kabinetinə göndərilmiş şifrəni (kodu) daxil etməklə adi qaydada imtahana başlayır. Əgər tələbə yalnış şifrə və ya istifadəçi adı səbəbindən imtahan sisteminə gec daxil olursa bu zaman ona əlavə imtahan vaxtı verilmir.

3.2.4. Sualları cavablandırıb bitirən hər bir tələbə proktora müraciət edərək imtahanı yekunlaşdırmaq istəyini bildirməlidir. Proktor həmin tələbənin "İş masasına" keçid edir və tələbənin "BİTİR" düyməsini sıxmaqla imtahanı bitirməsini müşahidə edir. Tələbənin proktora müraciət etmədən imtahan səhifəsindən çıxması intizam pozuntusu hesab edilir. Bu halda proktor tərəfindən müvafiq hesabat blankında qeydiyyat aparılır və növbəti gün imtahan sistemində olan məlumatlarla müqayisə əsasında araşdırma aparılır. Uyğunsuzluq aşkar edilən hallar imtahan nəticəsinin ləğv edilməsinə əsas yaradır. İmtahan zamanı belə davranan tələbələrin siyahısı ümumiləşdirilir və sessiya bitdiyi gündən sonrakı iş günü UNEC rektoruna müvafiq qərar qəbul edilməsi məqsədilə təqdim edilir.

3.2.5. İmtahanı bitirən tələbə virtual imtahan studiyasını tərk edir.